N63

# Ə M R

14.06. 2011

**Bakı şəhəri**

**"Respublikada narkoloji xidmətin təkmilləşdirilməsi haqqında"**

Respublikada narkoloji xidmətinin işinin səmərəliliyinin artırılması və Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2008-ci il tarixli 2271 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə Proqramın (2007-2012-ci illər) icrası məqsədilə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamənin 9.22-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 08 iyun 2011-ci il tarixli 25 nömrəli kollegiya qərarını əsas tutaraq

**ƏMR EDİRƏM:**

1. Respublika Narkoloji Dispanseri əsasında Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzi yaradılsın və əhaliyə narkoloji yardım göstərilməsi ilə yanaşı narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə nəzarət funksiyası həvalə edilsin.
2. "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzi haqqında" Əsasnamə təsdiq edilsin (əlavə olunur).
3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinin direktoru Telman Məmmədhəsənov təyin edilsin.

4. Tibbi yardımın təşkili şöbəsinin müdiri S.Əliyevə və Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinin idarəetmə heyətində müvafiq dəyişikliklər edilsin və strukturuna narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorların dövriyyəsinə nəzarət şöbəsi daxil olunaraq, mərkəzin ştat cədvəli hazırlanıb, müəyyən olunmuş qaydada təsdiq edilməsi təmin edilsin.

5. Maliyyə-iqtisadiyyat şöbəsinin müdiri A.Vəliyevə tapşırılsın ki, bu əmrdən irəli gələn digər məsələlər həll edilsin.

6. Səhiyyə Nazirliyinin Dərman Vasitələrinin Analitik Ekspertiza Mərkəzinin direktoru Ə.Abdulla-zadəyə tapşırılsın ki, psixotrop maddələr və onların prekursorları üzrə şöbə ləğv edilsin və mərkəzin əsasnaməsində və ştat cədvəlində müvafiq dəyişikliklər edilsin.

7. Əmrin icrasına nəzarət Nazir müavinləri Nigar Əliyevaya və Elsevər Ağayevə həvalə edilsin.

**Oqtay Şirəliyev**

Əsli ilə düzdür

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyinin
14 iyun 2011-ci il tarixli,
63 nömrəli əmri ilə
təsdiq edilmişdir

# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzi haqqında

# ƏSASNAMƏ

## I. Ümumi müddəalar

1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzi (bundan sonra "Mərkəz") əhaliyə ixtisaslaşdırılmış ambulator və stasionar narkoloji xidmət göstərən müalicə-profılaktika müəssisəsi olmaqla Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların dövriyyəsinə nəzarəti həyata keçirən müəssisəsidir.

2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Səhiyyə Nazirliyinin əmr və sərəncamlarını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və bu Əsasnaməni rəhbər tutur.

3. Mərkəz müstəqil balansa, qanunvericiliyə uyğun olaraq istifadəsində olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

4. Mərkəzin saxlanma xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

5. Mərkəz Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumdur.

6. Mərkəz Bakı şəhərində yerləşir.

## II. Mərkəzin fəaliyyət istiqamətləri

7. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. Respublika əhalisinə ixtisaslaşdırılmış ambulator və stasionar narkoloji xidmətin göstərilməsi;

7.2. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə nəzarətin həyata keçirilməsi;

7.3. Respublikaya idxal olunması nəzərdə tutulan kimyəvi maddə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların idxalına, ixracına, saxlanmasına və dövriyyəsinə nəzarətin həyata keçirilməsi;

7.4. narkoloji xidmət sahəsində dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak edilməsi;

7.5. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyətin göstərilməsi.

## III. Mərkəzin vəzifələri

8. Mərkəz aşağıdakı vəzifələri yerinə yetirir:

8.1. elmi təbabətin nailiyyətləri, eləcə də müalicə-profilaktika müəssisələrinin işinin qabaqcıl təcrübəsi əsasında müasir profilaktika, diaqnostika və müalicə üsullarını təcrübədə tətbiq etmək;

8.2. narkoloji tibb müəssisələrinin, kabinetlərin işinə konsultativ və təşkilati-metodik yardım göstərmək;

8.3. tibbi yardımın və xəstələrə qulluğun təşkilati forma və üsullarını inkişaf etdirmək və təkmilləşdirmək;

8.4. alkoqoldan sui-istifadə və sərxoşluq edən şəxslər arasında alkoqolizmin, narkotik vasitələrdən istifadə edənlər arasında narkomaniyanın və digər növ psixotrop maddələrdən istifadə edən şəxslər arasında toksikomaniyanın meydana çıxmasının qarşısını almaq məqsədilə profilaktik iş aparmaq;

8.5. azadlıqdan məhrumetmə yerlərindən alkoqolizm, narkomaniya və toksikomaniya ilə əlaqədar məcburi müalicəyə göndərilmiş şəxslərin tibbi müayinədən keçirilməsi, narkotik vasitələrdən və digər psixotrop maddələrdən istifadə edən şəxslərin əmək qabiliyyətinin müvəqqəti itirilməsi üzrə ekspertizanın, alkoqol sərxoşluğunun ekspertizası və digər növ ekspertizaların keçirilməsi, narkotiklərdən və digər psixotrop maddələrdən sui-istifadə edən şəxslərə psixoterapevtik və əxlaqi-mənəvi yardımın göstərilməsi işini təşkil etmək;

8.6. müalicə-mühafizə rejiminin gözlənilməsi üzrə tədbirlər həyata keçirmək;

8.7. Mərkəzin struktur bölmələrinin işinin səmərəliliyinin və göstərilən müalicə-profilaktika yardımının keyfiyyətinin təhlilini aparmaq;

8.8. Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahılarını müəyyənləşdirmək və təsdiq olunması üçün müvafiq

dövlət orqanlarına göndərmək;

8.9. narkotik vasitələrin, psixotrop maddələrin saxlanması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanması və onların dövriyyəsi ilə əlaqədar mövcud qaydaların icra olunmasına nəzarət etmək;

8.10. Respublikamızda tibbi və elmi məqsədlər üçün istifadə olunan narkotik vasitələr və psixotrop maddələrin illik tələbatını müəyyənləşdirmək;

8.11. narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının elmi və tibbi məqsədlər üçün respublikaya idxalına və tibb müəssisələri arasında düzgün istifadə olunmasına nəzarət etmək;

8.12. Respublikaya idxal olunması nəzərdə tutulan kimyəvi maddə-prekursorların xüsusi icazə (lisenziya) alınması üçün müraciətlər əsasında onların saxlanmasına müvafiq şəraitin olduğunu təsdiq edən rəy vermək;

8.13. müəssisələrdə narkotik vasitələrin, psixotrop maddələrin saxlanmasına müvafiq şəraitin olduğunu təsdiq edən rəy vermək;

8.14. Respublikaya idxal olunan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının miqdarı haqqında statistik məlumatları toplayıb, Narkotiklərə Nəzarət Üzrə Beynəlxalq Komitəyə göndərmək;

8.15. daxili işlər orqanlarının və dövlət sanitariya-epidemioloji nəzarəti nümayəndələrinin iştirakı ilə yararlıq müddəti bitmiş və xarab olmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsində iştirak etmək;

8.16. qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsində iştirak etmək;

8.17. qabaqcıl beynəlxalq təşkilatların təcrübəsi nəzərə alınmaqla narkologiya sahəsində elmi-tədqiqat işlərini inkişaf etdirmək, bu sahədə nailiyyətlərin tətbiq olunmasını təmin etmək;

8.18. Mərkəzə ayrılan büdcə vəsaitlərinin, kreditlər və qrantların və digər maliyyə vəsaitlərinin təyinatı üzrə istifadə olunmasını təmin etmək;

8.19. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik qaydalarının qorunması üçün zəruri tədbirlər və fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirlərini görmək;

8.20. Mərkəzin fəaliyyəti haqqında hesabatların toplanması, ümumiləşdirilməsi, dəqiqləşdirilməsi və müvafiq dövlət orqanlarına qanunvericiliyə uyğun olaraq çatdırılmasını təmin etmək;

8.21. Mərkəzin fəaliyyəti ilə əlaqədar olaraq daxil olan ərizə və şikayətlərə baxmaq, qanunvericiliklə müəyyən edilmiş tədbirlər görmək;

8.22. mühasibat uçotunun qanunvericiliyə uyğun aparılmasını təmin etmək;

8.23. fəaliyyəti sahəsində əhalinin məlumatlandırılmasını, internet saytının yaradılmasını təmin etmək;

8.24. fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## IV. Mərkəzin hüquqları

9. Mərkəz öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

9.1. narkoloji xidmətin təkmilləşdirilməsi və inkişafına dair təkliflər vermək;

9.2. təşkilati-hüquqi formasından asılı olmayaraq səhiyyə təşkilatlarından, dövlət orqanlarından, hüquqi və fiziki şəxslərdən müəyyən olunmuş qaydada zəruri olan məlumatları və materialları sorğu ilə tələb etmək və müvafiq qaydada cavablandırılmasını təmin etmək;

9.3. narkoloji xəstələr, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarına aid vahid məlumat banklarının yaradılmasını təmin etmək;

9.4. hüquq-mühafizə və digər əlaqədar təşkilatlarla bu sahəyə aid tədbirlərdə birgə iştirak etmək;

9.5. narkologiyaya, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə əlaqədar mövcud qanunvericiliyə aid normativ sənədlərin və layihələrin hazırlanmasında iştirak etmək;

9.6. narkologiya sahəsində öz səlahiyyətləri daxilində müvafiq investisiyaların cəlb olunmasına dair təkliflər vermək;

9.7. respublikada narkoloqlara olan tələbatın müəyyənləşdirməsində, bu mütəxəssislərin ixtisas hazırlıqlarının təkmilləşdirilməsi və elmi kadrların hazırlanmasında, eyni zamanda onların müəyyən olunmuş qaydada attestasiyasının həyata keçirilməsində iştirak etmək;

9.8. narkologiya sahəsində çalışan qabaqcıl işçilərin mükafatlandırması, fəxri adların, orden və medalların verilməsi haqqında aidiyyəti üzrə təkliflərlə müraciət etmək;

9.9. narkologiya üzrə konfrans, simpozium və digər tədbirləri təşkil etmək və bu tədbirlərdə iştirak etmək;

9.10. qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq beynəlxalq təşkilatlar, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı və xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq etmək və inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübəsini öyrənmək;

9.11. qanunvericiliklə müəyyən edilmiş qaydada Mərkəzin elmi əsərlər toplusunu və digər nəşrlər buraxmaq, internet saytı yaratmaq;

9.12. qanunvericiliyə uyğun olaraq nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## V. Mərkəzin fəaliyyətinin təşkili

10. Mərkəzin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir.

11. Mərkəzə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən vəzifəyə təyin və azad edilən direktor rəhbərlik edir. Direktor Mərkəzə həvalə

olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

12. Mərkəzdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən direktorun müavinləri vardır. Direktorun müavinləri onlara həvalə edilmiş vəzifələri yerinə yetirirlər və bunun üçün məsuliyyət daşıyırlar.

13. Direktor:

13.1. Mərkəzin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

13.2. Mərkəzin struktur bölmələrinin əsasnamələrini təsdiq edir;

13.3. Mərkəzin işçilərini müəyyən olunmuş qaydada vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbeh tədbirləri görür;

13.4. qanunvericiliyə uyğun olaraq icrası məcburi olan əmr və sərəncamlar verir, onların icrasını təşkil edir və nəzarəti həyata keçirir;

13.5. həkim və orta tibb işçilərinin ixtisaslarının artırılması üçün tədbirlər görür;

13.6. Mərkəzi təmsil edir.

14. Mərkəzdə direktordan (Tİbbi Şuranın sədri), onun müavinlərindən, Mərkəzin struktur bölmələrinin rəhbər işçilərindən, aparıcı mütəxəssislərdən ibarət Tibbi Şura yaradılır.

15. Mərkəzin Tibbi Şurasının üzvlərinin sayı və tərkibi Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilir.

16. Mərkəzin Tibbi Şurası öz iclaslarında Mərkəzin fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir və müvafiq qərarlar qəbul edir.

17. Mərkəzin Tibbi Şurasının iclasları onun üzvlərinin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Mərkəzin Tibbi Şurasının qərarları onun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Mərkəzin Tibbi Şurasının qərarı qəbul edilərkən səslər bərabər olarsa, Tibbi Şuranın sədrinin səsi həlledici hesab edilir.

18. Mərkəzin Tibbi Şurasının qərarları protokolla rəsmiləşdirilir və direktor tərəfindən təsdiq edilir.

19. Mərkəzin Tibbi Şurasının iclaslarına zəruri hallarda digər icra hakimiyyəti orqanlarının və təşkilatların rəhbərləri, habelə qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilər.